# Polis

# JO NESBO

Tərcüməçi:
Reyhan Əhmədova

qanun nəşriyyatı

**Politi**

# JO NESBØ

Uzun zamandır üstü açılmayan cinayətin yerində istintaqda iştirak edən polis zabitinin ölüsü tapılarsa, bunu təsadüf adlandırmaq çətin olar. Ancaq daha iki polisin də başına eyni hadisə gələrsə, onda bu cinayətlərin bir prinsiplə edildiyi aydın olduğu qədər də qorxuncdur. Həmin o köhnə cinayət işlərinin heç birinin üstü açılmayıb. Yeni qətl hadisələri ağlasığmaz qəddarlıqla törədilib, polisin isə əlində xırda bir dəlil belə yoxdur. Ən pisi də odur ki, polis ən yaxşı müstəntiqini itirdi.

Həmin vaxt Oslo xəstəxanalarının birində ağır yaralı bir insan huşsuz şəkildə yatır. Pasiyentin şəxsiyyəti gizli saxlanılır, yatdığı palatanı isə polis qoruyur...

**Jo Nesbø POLITI**
**Jo Nesbo POLİS**
Bakı, Qanun Nəşriyyatı, 2023, 640 səh.

Janr: fiction/roman/dedektiv
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 24.01.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Reyhan Əhmədova |
| Redaktor: | Ayişə Nəbi |
| Korrektorlar: | Şəhla Yarıbəyli, Aygün Həsənova |
| Texniki redaktor: | Xəyalə Şirinli |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

© Qanun Nəşriyyatı, 2023
© Jo Nesbø 2013

ISBN 978-9952-38-552-6

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# I Hissə

## PROLOQ

O, orada – içəridə yatırdı.

Otaqdakı künc şkafı köhnə ağac iyi verir, barıt və tüfəng yağı qoxuyurdu. Pəncərədən düşən gün otağı aydınladanda şkaf qapısının açar dəliyindən incə konusvari işıq zolağı şkafın içinə düşürdü. Gün işığı uyğun bucaq altında düşəndə isə şüa orta rəfdəki tapançanı işıqlandırırdı.

O daha məşhur “Steçkin” tapançasının surəti olan rus markası “Odessa” tapançası idi.

Bu silah öz həyatında çox şey görmüşdü: qolçomaqların əlində Litvadan Sibirə köçmüş, bütün Cənubi Sibir boyu bir mənzil-qərargahdan digərinə keçmiş, milisionerlər güllələyəndə də kazakların rəhbəri atamanın əlində olmuş və ancaq ondan sonra Tagil həbsxanasının silah kolleksiyaçısı rəisinin əlinə keçmişdi. Ən sonunda isə bu ürküdücü və əyilmiş silah Rudolf Asayev tərəfindən Norveçə gətirilmişdi. Rudolf isə ortalıqdan yoxa çıxana qədər heroinəbənzər opioid “skripka” adlı maddə ilə təmin edərək Oslo şəhərinin narkotik maddə bazarını öz inhisarında saxlayırdı. Silah indi də həmin şəhərdə, daha dəqiq desək, Holmenkollveyn küçəsində, Rakel Föukenin evindədir. “Odessa”nın doqquzun on səkkiz millimetrə olan “Makarov” tapançası kalibrində iyirmi gülləlik darağı var, ondan həm tək-tək, həm də dalbadal atəş açmaq olar. Darağında isə on iki güllə qalmışdı.

Bu tapançadan Kosova albanlarından ibarət rəqib qrupun dilerlərinə üç güllə atılmış, onlardan yalnız biri insana dəymişdi.

Daha iki güllə Qusto Hansseni öldürmüşdü. Bu cavan oğlan Asayevin pulunu və anaşasını oğurlayan oğru və narkotik maddə alverçisi idi.

Tapançadan hələ də son üç atəşin, Qusto Hanssen qətlinin istintaqını aparan keçmiş polis Harri Hollenin başını və sinəsini dəlmiş güllələrin qoxusu çəkilmirdi. Hətta bu son iki cinayətin baş verdiyi məkan da eyni idi: Hausmann, ev 92.

Polis hələ də Qustonun qətlinin üstünü aça bilməmişdi, ona görə də bu cinayətdə təqsirli bilinən on səkkiz yaşlı gənci sərbəst buraxmalı olmuşdu, çünki polis nə cinayət silahını tapmış, nə də bu gənclə cinayət silahı arasında bir əlaqə qura bilmişdi. Oğlanın adı Oleq Föukedir. O hər gecə yuxudan oyanır və boşluğa tamaşa edərək atəş səsi eşidirdi. Ancaq Qusto Hansseni öldürəni deyil, başqasını. Uşaqlığından bəri ona ata əvəzi olmuş və nə vaxtsa anası Rakel ilə evlənməyə hazırlaşan polisə açılan atəşin səsini... Harri Holeyə atılan. Onun gözləri qaranlıqda Oleqin qarşısında parlayırdı. Oğlan şkafın dibində gizlədilmiş silahı düşünərək onu həyatında bir daha heç vaxt görməyəcəyinə ümid edirdi. Artıq onu bir daha heç kim görməyəcəkdi. O, əbədiyyətə qərq olacaqdı.

O, orada – içəridə yatırdı.

Qorunan xəstəxana palatasından dərman və boya qoxusu gəlirdi. Çarpayısının yanındakı cihaz isə onun ürək döyüntülərini qeyd edirdi.

Oslo şəhər şurasının üzvü, sosial siyasət üzrə məsul şəxs olan İzabella Sköyen və yeni polis rəisi Mikayel Belman onu bir daha görməyəcəklərinə ümid edirdilər.

Artıq onu heç kim görməyəcək.

O, əbədiyyətə qərq olacaq.

## I FƏSİL

İsti və uzun sentyabr günü idi. Oslo-fyorda düşən işıq onun sularını gümüş ərintisi kimi parladır və artıq payız nəfəsi dəymiş çəmənliyi göy qurşağının bütün rəng çalarları ilə bərq vurmağa məcbur edirdi. Oslo sakinlərinin həyatları boyu bu şəhərdən heç vaxt köçməyəcəklərinə and içə biləcəkləri günlərdən biri idi. Günəş Ullern rayonu səmasında batmaqda idi və onun üfüqi yayılan son şüaları ətraf mənzərələrdən süzülərək axırdı: şəhərin varlı olmadığını göstərən alçaq və sadə evlərin üstündən; gözlənilmədən bu ölkəni dünyada ən varlı ölkələr sırasına çıxarmış, neft əfsanəsinin məhsulu olan terraslı bahalı, dəbdəbəli dam evlərin üstündən. Ondan dəfələrlə böyük olan digər Avropa şəhərləri ilə müqayisədə narkotik maddələrin artıq doza qəbulundan daha çox insanın öldüyü bu əmin-amanlıq şəhərinin Stens park nəşəxorlarının üstündən. Şüalar balaca bağçalardan da süzülürdü, burada bütün batutlar təhlükəsizlik toru ilə qorunur, uşaqlar təlimata uyğun olaraq onların üstündə üç-üç tullanırdılar. Günəş şüaları həm də Oslo çökəkliyini çevrələyən çəmənliklər və meşəliklərdən də süzülürdü. Günəş həzin vidalaşmadan sonra qatarın pəncərəsindən uzanan əllər kimi öz barmaq-şüalarını yayaraq şəhəri tərk etmək istəmirdi.

Günün başlanğıcı sərin təmiz hava və əməliyyat otağındakı kimi gur, parlaq gün işığının düşməsi ilə əlamətdar oldu. Vaxt

keçdikcə istilik artmış, səmanın mavi çaları daha da tündləşmiş, hava da sentyabrın ilin ən yaxşı ayı olduğunu hiss etdirən o xoş duyğunu oyadırdı. Aramla və yavaş-yavaş şər qarışdıqca Maridalsvannet gölünün ətrafında malikanələrin olduğu təpələrdə alma və küknar ağaclarının xoş qoxusu yayılırdı.

Erlend Vennesla sonuncu təpənin zirvəsinə çatırdı. O, əzələlərində gərginliyin artdığını hiss edərək, dizlərini daha çox qısmamağa çalışıb, fikrini velosipedin pedalına yuxarıdan aşağı düzgün basmağa yönəltdi. Çünki texnikanın düzgünlüyü çox vacibdir, xüsusən də insan bədəninin yükünü daha az yorulmuş, lakin həm də effektivliyi minimal olan əzələlərin üzərinə keçirmək istədiyində. O, velosipedin sərt çərçivəsinin ona qarşı işlədilən hər bir vatt gücü necə udduğunu və istifadə etdiyini, daha güclü təkan verildiyində onun sürətinin necə artdığını hiss edirdi. Vennesla oturacaqdan qalxaraq pedala basmanın dəyişməz fırlanma tezliyini, yəni dəqiqədə doxsan dövretməni saxlamağa çalışdı. O, gözucu nəbz ölçənə baxdı. Yüz altmış səkkiz. Venessla şlemindəki fənərin işığını sükana bərkidilmiş GPS-in ekranına tuşladı. Ona Oslo və ətrafının geniş xəritəsi yüklənmiş, fəal ötürücü ilə təchiz edilmişdi. Sözün düzü, velosiped və digər avadanlıqların məsrəfi, bu yaxınlarda təqaüdə çıxmış xüsusi ağır cinayətlər üzrə müstəntiqin xərcləyə biləcəyi məbləğdən daha çox idi. Amma indi, yəni həyat sənə yeni imkanlar açdığı bir vaxtda yaxşı fiziki formanı qorumaq vacibdir.

Düzünə qalsa, bu elə də kiçik imkanlar deyil..

Süd turşusu budlarını və ayaqlarını qıcıqlandırırdı. Bu ağrılı duyğular daha sonrakı olacaqlardan xəbər verirdi. Endorfin bayramı. Sızıldayan əzələlər. Təmiz vicdan. Əgər günəş batdıqdan sonra hava çox soyumasa, eyvanda arvadı ilə pivə ziyafəti.

O, bir anda zirvəyə çatdı. Buradan isə yol düzənliklə davam edirdi, tam qarşısında isə Maridalsvannet gölü görünürdü.

Vennesla sürəti azaltdı. O, şəhər kənarında idi. Əslində, cəmi on beşcə dəqiqə velosipedlə gedəndən sonra insanın Avropa paytaxt şəhərlərindən birinin mərkəzindən, daxmaların, tarlaların, gur meşənin əhatə etdiyi və axşam qaranlığında gözdən itməkdə olan turistlərin olduğu əraziyə düşməsi bir az inandırıcı deyildi. Qiyməti uşaq velosipedindən daha baha və nəvəsi Lina Mariyaya altı yaşında hədiyyə etdiyi "Bell" şirkətinin istehsalı olan velosiped şleminin içindəki başı tərdən qaşınırdı. Amma Erlend Vennesla şlemi çıxarmadı. Çünki velosipedçilərin ölüm hallarının çoxunun səbəbi baş travmaları olur.

O, nəbzölçəninə baxdı. Yüz yetmiş beş. Yüz yetmiş iki. Ürəyə yatan meh şəhərin şən, şaqraq səs-küyünü əsərək buraya gətirirdi. Yəqin ki, "Ullovol" stadionundan gəlir. Bu gün axşam orada ya Slovakiya, ya da Sloveniya ilə beynəlxalq görüş keçirilir. Erlend Vennesla bir neçə anlıq bu səs-küyün onun şərəfinə olduğunu düşündü. Çoxdandır heç kim onu alqışlamırdı, sonuncu dəfə onu Bryun rayonundakı Kriposda[1] "İşdən çıxma" mərasimində alqışlamışdılar. Kremli tort, rəis Mikayel Belmanın nitqi. Belman o vaxtdan bəri Oslonun Polis İdarəsinin rəisi vəzifəsinə doğru mətin addımlarla irəliləyir. Erlend alqışları qəbul edir, həmkarları ilə baxışları toqquşaraq, onlara razılıq bildirir və hətta Kriposda qəbul edilmiş qaydaya uyğun olaraq özünün faktlarla zəngin qısa minnətdarlıq nitqini söyləyərkən boğazında qəhər də hiss etmişdi. Xüsusi ağır cinayətlər üzrə müstəntiq vəzifəsində ikən o, yüksəlişlər də yaşamış, məğlubiyyətlər də keçirmiş, amma böyük səhvlər etməməyə nail olmuşdu. Amma onun bildiyinə görə, belə məsələlərdə yüz faiz əmin olmaq mümkün deyil. İndi DNT təhlili texnologiyaları bu qədər inkişaf etmişkən və onlardan bəzi köhnə işlərin açılmasında istifadə ediləcəyi barədə polis rəhbərliyindən

[1] Kripos – Norveçin kriminal polisinin baş idarəsi.

xəbərlər gəldiyinə görə bəzi suallara cavab alma ehtimalı var. Yeni cavablar. Qəti cavablar. Erlend üstü açılmamış cinayətlərin istintaqı zamanı yeni texnologiyaların istifadəsinin əleyhinə deyildi, amma çoxdan araşdırılıb bağlanmış işlərin yenidən araşdırılmasına bu qədər vəsait sərf edilməsini anlaya bilmirdi.

Şər qarışırdı, yol işıqlarının yanmasına baxmayaraq, meşə cığırına dönməni göstərən yol işarəsini az qala ötüb-keçəcəkdi. İşarə isə öz yerində idi. Elə Erlendin xatırladığı həmin yerdə idi. Döngədən burulub yumşaq yarpaqlarla örtülmüş meşə cığırına çıxdı. Yavaş-yavaş gedirdi, amma müvazinətini itirmirdi. Şlemindəki fənərdən düşən işıq şüası cığır boyu sürünür və Erlendin hər iki tərəfində lay divar kimi ucalan küknarların arxasında itirdi. Onun qarşısından dəyişkən qorxunc kölgələr sürətlə qaçışır, sonra qəfildən yoxa çıxırdılar. O özünü həmin qadının yerində təsəvvür etməyə çalışdığında da hər şey məhz elə belə olurdu. Üç gün zorlandığı əsarətdən əlindəki fənərlə necə qaçdığını təsəvvür edirdi.

Birdən Erlend Vennesla qaranlıqda bir az irəlidə qarşısında yanan fənəri görəndə, bunun həmin qadının fənəri olduğunu və qadının tutmaq üçün onu motosikletlə qovanlardan qaçdığını fikirləşdi. Erlendin qarşısındakı işıq yanıb-söndü, sonra isə düz onun üzünə düşdü. O dayandı, velosipeddən endi və fənərini nəbzölçəninə saldı. Artıq yüzdən aşağıdır. Pis deyil.

Şleminin kəmərini boşaltdı, çıxartdı və başını qaşıdı. İlahi, necə xoşdur! O, fənərini söndürdü, şlemi sükandan asdı və şlemin yellənərək əlinə dəydiyini hiss edə-edə velosipedini işığa tərəf sürdü.

Vennesla yuxarı tutulan fənərin qarşısında dayandı. Onun parlaq işığından gözləri qamaşdı. Gözü qamaşarkən, hələ də ağır nəfəsinin səsini eşitdiyini düşündü və nəbzinin belə ləng atması ona qəribə gəldi. O sanki bir hərəkət gördü, elə bil ki

orada titrəyən böyük işıq dairəsinin arxasında nə isə yuxarı qalxdı. Fit səsi eşitdi və həmin anda da ağlına qəribə fikir gəldi. O bunu etməməli idi. Şlemini çıxarmamalı idi. Velosipedçilərin çoxunun ölüm səbəbi...

Bu fikir onun ürəyini sıxdı, elə bil zamanda sıçrayış baş vermişdi və bir anlıq gözləri qaraldı.

Erlend Vennesla alnından isti tər damcısının süzüldüyünü hiss edərək təəccüblə irəli baxdı. O danışmağa başladı, sözləri isə beyni ilə dili arasındakı əlaqəni itirmiş kimi mənasız idi. Yenidən alçaqdan çalınan fit səsi eşitdi. Sonra səs kəsildi. Bütün səslər itdi, hətta nəfəsinin səsi də. Birdən diz üstə çökdüyünü, velosipedinin isə yavaş-yavaş yamacla aşağı sürüşdüyünü gördü. Qarşısında sarı işıq oynayırdı, tər damcısı qaşlarından süzülüb gözünə çatanda onu kor etdi. Bunun tər damlası olmadığını anladı.

Üçüncü zərbədən sonra beyninə sırsıra batdığını və boğazından keçərək gövdəsinə saplandığını hiss etdi. Onun bədəni gizildədi.

"Mən ölməyəcəyəm", – deyə fikirləşərək əlini qaldırmağa çalışdı, amma bədəninin heç bir hissəsini tərpətməyə gücü çatmayanda iflic olduğunu başa düşdü.

Dördüncü zərbənin heç fərqində də olmadı, amma burnuna dəyən çürümüş yarpaq qoxusundan yerə yıxıldığını fərq etdi. Gözlərini bir neçə dəfə yumub-açdı və bir gözü görməyə başladı. Düz qarşısında palçığa bulaşmış bir cüt qara çəkmə gördü. Dabanları qalxaraq çəkmələr yerdən aralanırdı. Sonra yenidən geri qayıdırdılar. Hərəkət təkrarlanırdı. Dabanlar qalxır, çəkmələr yerdən aralanırdı. Elə bil ki, onu vuran yerində hoppanırdı. Zərbələrə mümkün qədər çox güc verə bilsin deyə tullanırdı. Erlendin ağlından keçən son fikir isə nəvəsinin adını yadına salmalıdır, öz nəvəsinin, onun adını yadında saxlamalıdır fikri idi...